Tədbirdə Təhsil Nazirliyi və “GİZ” Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, Təhsil Nazirliyi və “GİZ” Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin birgə həyata keçirdiyi bu layihənin məqsədi ilk peşə-ixtisas təhsili müəssisələri direktorlarının və digər rəhbər işçilərin bacarığını artırmaqla, təhsildə keyfiyyət və səmərəli idarəetməni təmin etməkdən ibarətdir.

Layihə çərçivəsində Peşəkar Təlim və Dəstək Mərkəzi yaradılıb və namizədlərə uzunmüddətli təlimlər keçirilib. Təlimlər təhsildə liderlik və idarəetmə, məktəbin idarə olunması, kurikulumun dizaynı, qiymətləndirmə, məlumatların təhlili, monitorinqi və qiymətləndirilməsi kimi peşə təhsilinin əsas komponentlərini əhatə edib.

Çıxış edənlər bu layihənin ilk peşə-ixtisas təhsili müəssisələrinin inkişafına layiqli töhfə verəcəyini vurğulayıblar.

Sonda təlimdə iştirak etmiş 25 nəfərə sertifikat təqdim olunub.

Qeyd edək ki, birinci mərhələdə təlimlər yalnız Bakı şəhərində fəaliyyət göstərən ilk peşə-ixtisas təhsili müəssisələrinin rəhbər və müəllim heyəti üçün təşkil edilib. Növbəti layihələrdə regionlardakı ilk peşə-ixtisas təsili müəssisələrinin rəhbər və müəllim heyəti də təlimlərə cəlb olunacaq.